Azərbaycanın vergi xəbərləri

**UOT 332.122**

# İstehsal infrastrukturunun regional aspektləri



**Əliyev Rauf Rəhim oğlu***
Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi

## Xülasə

Məqalə bazar münasibətləri şəraitində regional istehsal infrastrukturunun nəzəri və empirik aspektlərinə, ölkənin iqtisadi inkişafında onun rolu və əhəmiyyəti məsələlərinin tədqiqinə həsr edilmişdir. Burada müasir dünyada regional istehsal infrastrukturunun mövcud sistem və təşkilati-hüquqi formaları, göstəricilər şəbəkəsi, onun metodoloji təyinatları, iqtisadi rayonlaşma strategiyası və ixtisaslaşma meyilləri təhlil olunmuş, rəqabətqabiliyyətliyi artıran amillər şəbəkəsi müəyyən edilərək, səmərəli dövlət tənzimlənməsi istiqamətləri göstərilmişdir. Əsaslandırılmışdır ki, regional inkişafın davamlı təminatı üçün, yerli material, maliyyə, əmək resursları və təbii sərvətlərdən səmərəli istifadə əsasında daha modern və təkmil istehsal infrastruktur yaradılmalıdır.

**Açar sözlər:** *regional iqtisadiyyat, istehsal infrastrukturu, sosial infrastruktur rayonların ixtisaslaşması*

## 1.Giriş

Bazar münasibətlərinin inkişafı idarəetmənin bütün səviyyələrində sistem və struktur dəyişiklikləri ilə müşayiət olunur. İctimai prosesin regionlaşması və bu sferada idarəetmənin təkmilləşməsi nəticəsində dövlət iqtisadi təhlükəsizliyə xələl gətirməyən bir sıra mərkəzi səlahiyyətlərini bölgələrə keçirir. Bu baxımdan regionlar özlərinin iqtisadi statuslarının genişləndirilməsində müəyyən nisbi liberal imkanlar qazanır və regional inkişaf daha çox daxili resurslar hesabına irəliləyiş tapır. Dövlətin inkişaf məqsədlərinə uyğun olaraq, regionlar öz maraqları çərçivəsində strate-

* Bakı şəhəri AZ1000 Ü.Hacıbəyov küçəsi 40.
r.r.aliyev@mail.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

giyalarını qurur və daxili iqtisadi təhlükəsizliklərini təmin edirlər. Bu çərcivədə regionlarda istehsal prosesini, onun davamlılığını və fasiləsizliyini təmin edən, fəaliyyət səmərəliliyini artıran əlverişli infrastrukturun yaradılması olduqca mühüm əhəmiyyət daşıyır. Çevik və iqtisadi müqabil istehsal infrastruktruna malik olmadan hər hansı bir regionun avtonomiyası haqqında mülahizələr yürütmək çətindir. Bütün bu məsələlərin optimal həlli komplekslilik, sistemli baxış, elmi yanaşma tələb edir, regional istehsal infrastrukturunun fəaliyyətləndirilməsi və inkişafının tədqiqi istiqamətində metodik təyinatların, daxili göstəricilər sisteminin təkmilləşdirilməsi üzrə müvafiq ümumiləşdirmələrin aparılmasını şərtləndirir. İstehsal infrastrukturunun regional aspektə tədqiqi isə regionun özünün bütövlükdə nəzəri çərçivədə və beynəlxalq aləmdə təcrübələndirilən struktur və statusuna elmi-təhlili baxışı zəruri edir. Bu zərurət həm də, müasir dünyada regional sistemin yeni təzahürdə institusionallaşan mahiyyəti, onun istehsal infrastrukturunun texnoloji və iqtisadi durumunu səciyyələndirən göstəricilərinin digər paralel infrastruktur formaları ilə qarşılıqlı əlaqəliliyindən irəli gəlir. Buna görə də, regional istehsal infrastrukturunun fəaliyyətləndirilməsi və inkişafının tənzimlənməsində onun müasir dünyada mövcud sistem və təşkilati-hüquqi formalarına təhlili baxış mühüm tədqiqiat əhəmiyyəti kəsb edir.

### 2. Regional struktur: nəzəri çərçivələr və metodoloji təyinatlar

Fransız mənşəli termin olaraq “rayon” birbaşa tərcümədə “şüa”, “qövs” anlamlarını ifadələndirir. Geniş interpetasiyada isə rayon hər hansı bir ərazi bölgü sistemində qarşılıqlı rabitəli elementlər vəhdətində akvatoriyanın da şamil olunduğu bütöv coğrafi məkanı təcəssüm etdirir. “Rayon” və “region” anlayışlarının sinonimatik əlaqəliliyinə nəzərən praktikada geniş diapozonda daha çox region kateqoriyası tətbiq olunur [1].

Regional nəzəriyyə yaradıcılarının tədqiqatlarında region iqtisadi münasibətlər subyekti olaraq təbii və insani resursların yerləşməsi, əmtəələrin istehsal və istehlakının, xidmət sferasının cəmləşdiyi xüsusi iqtisadi maraqlar məkanı kimi göstərilir. Müasir nəzəriyyədə isə reqiona informasiya cəmiyyətinin sistemaltısı, iqtisadiyyatın beynəlmiləlləşməsi və qloballaşmasının bilavasitə iştirakçısı olaraq da baxılır [1, 2].

Regionların müasir funksional strukturunu sxematik quruluş Sxem1-də göstərilmişdir.

Sxemdə göstərilən regional sistem həm “konfederativ” və həm də “fedarativ” region struktur üçün əksərən eyniyyət təşkil edir. Bununla belə, bir sıra ölkələrdə bu format bir sıra spesifik cəhət və xüsusiyyətləri ilə də müəyyən fərqliliklərə malikdir.

Ölkələrin daxili strukturuna müvafiq olaraq regional sistem nəzəri və empirik aspektdə əksərən iqtisadi rayonlaşma kimi təcəssüm olunur. Bu baxımdan da regional kompleksi dəyərləndirərkən iqtisadi rayonlaşma kateqoriyasına da baxılmalıdır.




**Sxem 1.1. Regionun funksional strukturu**

İqtisadi rayonlaşma ölkə iqtisadiyyatının ixtisaslaşmış hissələri və onlar arasında qarşılıqlı rabitədən törənən istehsal güclərinin ərazi strukturda sistem vəhdətini, quruluşunu xarakterizə edir. O, ölkənin inzibati-ərazi sistemi ilə sıx əlaqədar olaraq, əməyin coğrafi bölgüsünün nəticəsində yaranır. İqtisadi rayonlaşma istehsal, resurs, sosial və siyasi amillər hesabına inkişaf tapır. Lakin burada daha mühüm amil kimi ixtisaslaşma çıxış edir. İxtisaslaşma ölkənin ayrı-ayrı hissələrinin malik olduqları təbii, tarixi, sosial-iqtisadi xüsusiyyətlərinə görə əmək bölgüsündə məhsul və xidmətlərin istehsalının müəyyən növləri üzrə dövlət əhəmiyyətli sahələrin regional üstünlükdə irəliləyişinə təkan verir [2, 3].

İqtisadi rayonlaşma aşağıdakı üç əsas əlamətə görə formalaşır:

1. *İqtisadi* - ölkənin vahid xalq təssərüfatının müəyyən yardımçı və xidmətedici istehsallarını əhatə edən ixtisaslaşmış ərazi hissəsi olaraq;
2. *Milli* - rayonun əhalisinin milli tərkibinin tarixən ənənələşmiş əmək, mədəniyyət, məişət və sonrakı yeni yaranışlarının birləşdirən sistemdə;
3. *İnzibati* - ölkənin inzibati-ərazi quruluşunu və iqtisadi rayonlaşma vahidliyini təyin edərək müstəqil səmərəli inkişaf və ərazi əmək bölgüsündə rolunu möhkəmləndirən aspektdə.

İqtisadi rayonlaşmanın təsnifat prinsipləri isə daha genişdir. Bunlar, əsasən, aşağıdakılardan ibarətdir:

- ❍müstəqillik prinsipi - hər bir region iqtisadi və sosial suverenitetə, ərazinin sosial-iqtisadi və siyasi inkişafının strateji və taktiki məsələlərinin həllində nisbi müstəqilliyə malik olmalı;
- ❍özünüinkişaf prinsipi - regionların inkişafı daxili təzadlar və əksliklər əsasında yerli potensialdan istifadədə təmin edilməli;
- ❍özünütəminat prinsipi - ilk vacib tələbat malları və əmətəələrin başqa bölgələrdən alınması ilə yanaşı, üstün nisbətdə daxili istehsala əsaslanan regional bazarın formalaşdırılması zəminində təchiz olunma;
- ❍nümayəndəlik prinsipi - aşağı taksonomik üstünlüklərə malik rayonlar yuxarı instansiyalara idarəetmənin ayrı-ayrı funksiyalarını deyil, həm də ərazinin əlahiddə obyekt və hissələrini də həvalə edirlər;
- ❍özünüidarəetmə prinsipi - hər bir regionda təsbit olunmuş hüquq və funksiyalara müvafiq sərbəst idarəetmə orqanları yaradılmalı;
- ❍özünümaliyyələşdirmə prinsipi - regionun daxili büdcəsinın başlıca olaraq, ərazi mənbələri hesabına formalaşdırılması;
- ❍sosial qanunluluq prinsipi - hər bir insanın hüquqlarının, icmaların və bütün təsərrüfat subyektlərinin fəaliyyətinin aktiv reallaşdırmalı, nümayəndəlik, icra hakimiyyəti və bələdiyyələr üçün ərazi inkişafı təmin edən bütün tənzimlənmələr müvafiq qərarlar paketində təcəssüm olunmalı.

İnzibati-ərazi qurumlarda sosial-iqtisadi proseslərin tənzimlənməsi daim mürəkkəb məsələlər sırasında olmuşdur. Sosial-iqtisadi proseslərin ölkənin milli və iqtisadi təhlükəsizliyinə cavab verən aspektlərdən tənzimlənməsi onun inkişaf strategiyasına səmərəli reallaşmasının qarantı kimi qəbul olunur. Yeni reallıqlar isə tənzimləmə və idarəetmə proseslərinin təkmilləşməsini şərtləndirmişdir.

Bütün müasir iqtisadi sistemlərdə olduğu kimi, iqtisadi rayonlaşma şəbəkəsində də dövləti müdaxilə və tənzimlənmə dolayı (iqtisadi) və birbaşa (inzibati) olan iki mühüm metod əsasında reallaşır. Əlbəttə ki, bazar təsisatlı ölkələrdə maliyyə-kredit strategiyasına əsaslanan iqtisadi metod prioritet mövqedə dayanır. Bu sferada isə onun əsas alətlərini pul-kredit siyasəti, mütləq ehtiyatlar norması, banklararası faiz və uçot stavkası, Mərkəzi Bankın qiymətli kağızlar bazarında dövlət istiqrazları ilə apardığı əməliyyatlar toplumu təşkil edir.

İqtisadi metodlarla tənzimləmə iqtisadi rayonlaşma çevrəsində bazar təbiətindən irəli gəlsə də, heç də optimallığı tamlıqla şərtləndirmir. Bu sıra da inzibati metodlarla tənzimləməyə də yer ayrılır. Belə zərurət, xüsusən, dövlət inhisarının hakim olduğu, direktiv planlaşdırma, xərclər və qiymət nisbətlərinin üstün mövqedə dayandığı ümumi və zonal iqtisadi mühitdə əhəmiyyətini nümayiş etdirir. Bununla belə, iqtisadi rayonların menecmenti prosesinin müasir spektrində iqtisadi təhlil, plan və proqnozlaşdırma, təşkilati, uçot, nəzarət kimi əlahiddə texnoloji funksiyanallığa da əhəmiyyət verilir [1, 2].

İstehsal infrastrukturunun regional aspektə təhlili regionların bütün silsilədə

təşəkkül və inkişaf problemlərinin araşdırılmasını, onun elmi-nəzəri aspektdə struktur təhlilini də qaçılmaz edir. Regionlaşma prosesində ərazi-coğrafi mövqeylə yanaşı ilk öncə mədəni-sosial komponentlər daha qabarıq nəzərə çarpır. Buraya konkret olaraq aşağıdakılar daxil edilir:

❖ material mədəniyyət - məhsuldar qüvvələri, istehsal münasibətlərini, istehlak predmetlərini insan tərəfindən yaradılmış mədəni landşaftı əhatə edir;
❖ mənəvi mədəniyyət - yazı, ədəbiyyat, dil, əxlaq, adət-ənənə, etik baxışlar, din, ideologiya, fəlsəfə, hüquq, incəsənət və təhsildə ehtiva olunan;
❖ sosial mədəniyyət - sosial təminat, səhiyyə, siyasi qruplaşma, partiyalar, ictimai təşkilatlar, silahlı qüvvələr, dövlət və idarəetmə sistemini birləşdirən ictimai institutlar [1, 2, 4].

Bu üç sistemaltı - material, mənəvi və sosial mədəniyyət hər bir millət üçün müstəqilliyi təcəssüm edirən mühüm əhəmiyyət daşıyır. Bununla belə, mədəniyyətin bütün komponentlərində generator funksiyasını məhsuldar qüvvələr ifadə edir. Onun səviyyəsi və inkişafı həlledici sürətdə istehsal münasibətlərinə təsir göstərir. Bu təsir dairəsinə həm də insanların maddi və material tələbləri daxildir. Məhsuldar qüvvələr mexanizminin əsas hərəkətverici qüvvəsi isə innovasiyaların tətbiqi və generasiyasının yüksək səviyyədə təsiri, elmi-texniki tərəqqinin inkişaf meyli, texnoloji səviyyənin yüksəkliyi ilə də xarakterikdir.

## 3. Regional iqtisadi sistemlər və ixtisaslaşmalar

Regional iqtisadiyyatın qurucuları tədqiqatlarında region xüsusi iqtisadi maraqların daşıyıcısı, iqtisadi münasibətlərin subyekti olaraq deyil, təbii və insani resursların yerləşməsi, əmtəələrin istehsal və istehlakı, xidmət sferasının cəmləşməsi məkanı kimi çıxış edir.

Nəzəri çərçivədə region çoxfunksional və çoxaspektli sistem olaraq aşağıdakı paradiqmalaşmanı təzahür etdirir:

❖ region-kvazidövlət;
❖ region-kvazikorporasiya;
❖ region-bazar (bazar arealı);
❖ region-sosium [5, 6].

*Region-kvazidövlət* nisbi ayrılmış dövlət və milli iqtisadiyyat sistemaltısı kimi çıxış edir. Bir sıra ölkələrdə belə regionlar əvvəllər mərkəzə mənsub ayrı-ayrı funksiyaları və maliyyə resurslarını akkumlyasiya edirlər. Burada başlıca olaraq regional hakimiyyətlə umumidövlət hakimiyyətinin qarşılıqlı münasibətləri zəminində, milli iqtisadiyyatın bir hissəsi kimi region iqtisadiyyatının tənzimlənməsi funksiyası dayanır.

*Region-kvazikorporasiya* isə iqtisadi fəaliyyətin, regional və bələdiyyə mülkiyyətinin nəhəng subyekti kimi çıxış edir. Bu keyfiyyətdə regionlar əmtəə, xidmətlər və

kapital bazarında rəqabət mübarizəsinin iştirakçılarına çevrililər. Onlar iqtisadi subyekt olaraq, milli və transmilli korporasiyalararası qarşılıqlı təsir yaradır, ərazilərində mənzil-qərərgahlar, korporativ filiallar yerləşdirməklə, iş yerlərinin bölgüsü və sifarişi, qiymətyaratma mexanizmləri, gəlirlər transfertini gerçəkləşdirməklə regional iqtisadi inkişafı təmin edirlər. Müasir korporasiyalardan fərqli olaraq daha geniş resurs sərəncamına malikliyi ilə bu tip regional sistemlər daha müstəqil inkişaf yaradırlar.

*Region-bazarlar* - təyin olunmuş sərhədlər, areallar çərçivəsində fəaliyyət göstərir. Burada əsas diqqəti iqtisadi fəaliyyətin ümumi şərait və şərtlərinə, müqabil investisiya iqliminin yaradılmasına, geniş seqmentli lokal bazar quruculuğuna yönəldilir. Bazar özünütənzimini, dövlət reqlamentasiyasını və sosial nəzarəti ehtiva edən müvafiq regional sistemi çox zaman təlim fənni olaraq regional bazarçılıq da adlandırırlar.

*Region-sosium* - təyin olunmuş ərazidə yaşayan insan cəmiyyətləri formasını təcəssüm etdirir. Region-sosium yaranmasında sosial həyatın, əhali və əmək resurslarının, elm və təhsilin, səhiyyənin, mədəniyyətin, ətraf mühitin və yerləşmə sisteminin inkişafı ilk cərgəyə gətirilir. Ayrı-ayrı sosial qrupların, onların xüsusi funksiya və maraqları kontekstində əhatə olunan müvafiq yanaşma iqtisadi genişliyi aşaraq regional sosiumu ən geniş şəbəkədə sintez edir.

Bütün bunlarla yanaşı, regional iqtisadi nəzəriyyə inkişaf edərək digər ixtisaslaşmaları da əhatə edir. Yeni reallıqlar regiona informasiya cəmiyyətinin sistemaltısı və ya iqtisadiyyatın beynəlmiləllşməsinin və qlobalizasiyasının bilavasitə iştirakçısı kimi də baxılmasını şərtləndirir. Region nəzəriyyəsinin təkamülü iqtisadi inkişafda qeyri-material məqsəd və amillərin rolunun yüksəldilməsini, təlimlərarası biliklərin və regionların dayanaqlı ekoloji-sosial-iqtisadi inkişaf modelinə keçid imkanlılığını əks etdirir [4].

Bir çox tədqiqatların nəticələri həmişə iqtisadi praktikada qavranılmır. Regionların sosial-iqtisadi inkişafın səmərəli idarə edilməsi və mühüm əhəmiyyət kəsb edən ekoloji təhlükəsizliyinin təmin edilməsində maliyyə resurslarının minimumlaşdırılması ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsini vacib amil kimi çıxış edir. Burada səmərəli idarəetmədə faktiki nəticələr proqnozlarla tam uzlaşma tapmalı, qəbul edilən qərarlar optimallıq təşkil etməlidir.

## 4. Regional istehsal infrastrukturu

Region quruluşca ayrı-ayrı sahələrin vəhdətindən ibarət olsa da, bu vəhdəti onun ayrılmaz və çox inteqrir xüsusiyyətli və əhəmiyyətli olan hissəsi - infrastrukturu yaradır. Heç bir region müvafiq infrastruktur əldə etmədən müasir inkişaf səviyyəsinə malik ola bilməz.

Regionun infrastrukturu bütövlükdə özündə mənsub ərazinin sosio-təbii təsərrüfat sisteminin normal fəaliyyətini təmin edən, ona xidmət göstərən yardımçı sahələrin məcmusundan ibarətdir [1, 4].

İstehsal infrastrukturu isə bütövlükdə regional infrastrukturun tərkib hissəsi kimi çıxış edir.

Regionun istehsal infrastrukturunun fəaliyyəti material, maliyyə və əmək resursları ilə birlikdə bütün təbii sərvətlərdən də istifadəni özündə əks etdirir. Bu baxımdan regionun istehsal infrastrukturu təbiətdən istifadənin münasibətlər sistemi ilə istehsalın təbii şərtləri, texniki, kimyəvi, bioloji vasitələri, canlı əmək və məhsul sferasında sıx bağlılığı vardır. Məhz buna görə də, regionun istehsal infrastrukturuna mənsub ərazinin sosio-təbii təsərrüfat sisteminin tərkib hissəsi kimi yanaşılmalıdır. Bu həm də, ondan irəli gəlir ki, sosio-təbii təsərrüfat sistemi də özündə istehsalçıların, istehlakçıların və gələcək bütün təbii sərvətlər istifadəçilərinin istehsal-iqtisadi münasibətlərini, onların qarşılıqlı əlaqəliyini özündə əks etdirir [4, 7]. Beləliklə, regionun istehsal infrastrukturu - təkrar istehsal üçün şərait yaradan, istehsal faktorlarını, onların faydalılığını formalaşdıraraq, ərazinin sosio-təbii təsərrüfat sisteminin təsərrüfat subyektlərinin xərclərini özündə birləşdirən fəaliyyət sferası kimi çıxış edir.

Regionun istehsal infrastrukturu digər sistemlərdə olduğu kimi, özündə giriş, proses və çıxış kimi elementləri birləşdirir. “Giriş” aspekti qismində istehsal infrastrukturuna əməyin ərazi bölgüsü kimi yaranan, yerli təbii və digər resurslardan istifadəni birləşdirən və bununla da inkişafa təsir göstərən istehsal amilləri sistemində baxılması məqsədəuyğundur. İstehsal infrastrukturunun fəaliyyət “proses”i ərazi sosio-təbii təsərrüfat sistemi üçün məhdud keyfiyyət və kəmiyyətdə istifadə olunan resursların material istehsalı və təkraristehsalına şəraitin yaradılması ilə bağlıdır. İstehsal infrastrukturunun “çıxış”ı keyfiyyətliliyini isə regionun davamlı inkişafını sürətləndirən material istehsalının fəaliyyət nəticəliyi əks etdirir [1, 7].

Hər bir region özünün sosial-iqtisadi tərkibi, inkişaf səviyyəsi və digər xarakterik cəhətləri ilə unikallıq təşkil edir. Bu xüsusiyyətlilik regionun istehsal infrastrukturunun onun sosial infrastrukturu ilə qarşılıqlı əlaqəliliyinin təyinatında mühüm əhəmiyyət daşıyır. Bununla belə, bütün regionlar ölkənin vahid sosial və iqtisadi məkanı çərçivəsində, iqtisadiyyatı daxilində inkişaf tapırlar. Nəzəri cəhətdən istehsal infrastrukturu ilə sosial infrastrukturun qarşılıqlı əlaqəliyini regional tədqiqatçılar “Meybus zolağına”[1] bənzədirlər. Bu qarşılıqlı əlaqəliliyin təyinatında infrastrukturlar təsiri biri digərinə keçir. Nəticədə əvvəlcə nəzərdə tutulanın əksi yaranaraq qarşılıqlı keçid formalaşır. Bu dövriyyə spiralvarı formada bütün növ infrastrukturların qarşılıqlı əlaqəliyini əks etdirir. Bununla belə, burada hər bir infrastruktur vahid bənd olaraq yalnız xassəlik əlamətinə görə qarşılıqlı əlaqəlikdə olur. Buna görə də, regional idarəetmə istehsal infrastrukturu ilə sosial infrastrukturun inkişaf stimullarını tapmaqla yanaşı, onların ümumi olan xassəvi əlamətlərinə təsir etmə alətlərinə də malik olmalıdır. Əslində real həyatda da istehsal infrastrukturu ilə sosial infrastrukturun ayrıca mövcudluğu mümkün deyildir.

[1]”Meybus zolağı” (digər adlanışda Meybus təbəqəsi) topoloji obyekt olaraq kənarları sadə birxəttli səthdir. Bir nöqtədən digərinə yetişmək üçün kənarlar kəsişmir. “Meybus zolağı” eyni zamanda -1858-ci ildə alman riyaziyyatçıları Avqust Ferdinant Meybus və İohan Benedikt Listinq tərəfindən aşkarlanmışdır. “Meybus zolağı”nı bəzən sonsuzluq rəmzi də - adlandırırlar. Bu ondan irəli gəlir ki, bu zolağın kənarları ilə əbədi olaraq hərəkət etmək mümkündür.




**Sxem 1.2 Regionun istehsal və sosial infrastrukturun qarşılıqlı əlaqəlik dövriyyəsi**

İstehsal infrastrukturu ilə sosial infrastrukturun qarşılıqlı əlaqəlilik dövriyyəsini sxematik forma və həndəsi quruluşda Sxem 2-dəki kimi təqdim etmək olar.

Müasir praktikada regional iqtisadi artımın istehsal infrastrukturundan asılılığı əhəmiyyətli dərəcədə inkişaf etmiş sosial infrastukturdan asılıdır. İnkişaf etməmiş sosial infrastuktur insanlara sosial motivasiyalarını dolgun reallaşdırmağa imkan vermir. Buna görə də regionun istehsal infrastukturunun inkişaf proqramlarını həyata keçirərkən onun tərkib hissəsi olan sosial infrastrukturun inkişaf proqramı da hazırlanıb reallaşdırılmalıdır. Regional istehsal infrastrukturunun inkişaf strategiyasında belə yanaşma zəruridir və bu reallıq özündə bir sıra digər aktların da həyata keçirilməsini şərtləndirir. Burada əsas istiqamət regionun posport tərtibatında ideoloji dəyişiklik və təkmilləşmələrin aparılması ilə bağlıdır. Hazırda bir çox ölkələrdə regionun infrastrukturunun müxtəlif obyektlərini inventarizasiyasını aparmaq məqsədi ilə belə pasportlar yaradılır. Bu sənəd regionun bütün infrastruktur növlərinin qarşılıqlı əlaqəliyinin təminatında, xüsusən də istehsal infrastrukturu ilə sosial infrastrukturun qarşılıqlı əlaqəliyində mühüm rol oynayır.

Hər bir region özünə məxsus iqtisadi göstəriciləri ilə fərqlənir. Lakin müasir regionun iqtisadi gücü, sosial keyfiyyəti ümumi olan formalaşmış göstəricilər sisteminə malikdir. Burada əsas rolu istehsal infrastrukturu və sosial infrastrukturun təkmilliyi, sənaye və kənd təssərüfatı məhsulunu həcmi, istehlak qiymətləri, real pul gəlirləri, məşğulluğun səviyyəsi, əsas kapitala investisiyalar və sair bu kimi göstəricilər aid edilir.

## 5. Nəticələr

Regional istehsal infrastrukturunun fəaliyyətləndirilməsi və davamlı inkişafının təmin edən amillərin tədqiqi üzrə aparılan təhlil bir daha göstərir ki, hər bir region özünün cografi mövqeyi, ərazi komponentləri, iqtisadi və sosial quruluşuna görə

ümumi olduğu qədər də fərqlidir. Bu fərqlilik regionların resurs bazası, əhali sayı, iqtisadi aktivlik üstünlüklərində və uyğun ərazi istehsal-xidmət komponentləri üzrə ixtisaslaşmasında təcəssüm olunur. Regional ixtisaslaşma isə müvafiq təsnifat prinsiplərini əks etdirir və ərazi strukturunda formalaşan, təşəkkül tapan istehsal gücləri ilə xarakterizə olunur.

İnkişaf edən bazar münasibətləri idarəetmənin, menecment texnologiyalarının təkmilləşməsi bütün səviyyələrində struktur dəyişiklikləri ilə müşayiət olunur. Müasir zamanda regionun inkişaf səviyyəsi bazar seqmentlərinin genişliyi və modernliyi ilə bağlıdır. Regionun fuksional strukturu təbii resurs, sosial, iqtisadi, rekrasiya, dini, demoqrafik və sair amil və əlamətlərlə vəhdətdədir. Bu funksionallığı isə dörd mühüm infrastruktur - istehsal, sosial, ekoloji və institusional infrastrukturlar müəyyənləşdirir. Bununla belə, bu strukturda informasiya, maliyyə-kredit və kommersiya elementlərini özündə birləşdirən əsas təkanverici qüvvəyə malik olan bazar infrastrukturu da çıxış edir. Hər bir infrastruktur elementi və ya bazar seqmenti regionun fuksional strukturunda məxsusi yer tutur. Müasir zamanda iqtisadi inkişaf etmiş region isə özünün istehsal infrastrukturu ilə üstünlük təşkil edir.

Nəzəri tədqiqatlar və empirik araşdırmalar göstərir ki, region yalnız xüsusi iqtisadi maraqların daşıyıcısı və iqtisadi münasibətlərin subyekti, təbii və insani resursların yerləşdiyi ərazi deyil, həm də əmtəələrin istehsalı, istehlakı və xidmət sferasının da cəmləşdiyi kvazidövlət, region-kvazikorporasiya, region-bazar və region-sosium məkanı kimi də çıxış edən istitusional bir sistemdir. Regional infrastrukturunun fəaliyyətləndirilməsi və inkişafında mühüm yeri isə bütövlükdə bu infrastrukturun tərkib hissəsi olan material, maliyyə, əmək resursları və təbii sərvətlərdən istifadəni özündə əks etdirən istehsal infrastrukturu tutur. Buna görə də, regional strategiyada mövcud istehsal infrastrukturunu xüsusiyyətləri, inkişaf problemləri, onun digər infrastruktur formaları ilə qarşılıqlı münasibətləri nəzərə alınması vacibdir. Bu münasibətlər işə ölkə daxili iqtisadi və sosial durumla mühüm bağlı olsa da qlobal meyllərdən də əhəmiyyətli dərəcədə asılıdır.

## Ədəbiyyat siyahısı

1.Региональная экономика в информационном измерении: модели, оценки, прогнозы. (сборник научных трудов) Москва-Барнаул: “Бизнес-юнитек”, 2003, 358 с.
2.Регионоведение: Учебник для вузов (под ред. проф. Т.Г. Морозовой), М.: Банки и биржи, ЮНИТИ, 1998, 424 с.
3.Козырев В.М. Основы современной экономики, М.: Финансы и статистика, 2000, 367 с.
4.Социального-экономическая география зарубежного мира, М.: Крон-Пресс, 1998, 592 с.
5.Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat, Bakı: Elm, 2006, 509 s.
6.Hacızadə E.M. Regional inkişaf strategiyası: elmi-empirik baxış və yeni konseptual əsaslandırmalar (jurnalda çap olunmuş materiala istinad) Dirçəliş. Bakı. №86-87. 2005.
7.Кузнецова А.И. Инфраструктура. Вопросы теории, методологии и прикладные аспекты современного инфраструктурного обустройства. Геоэкономический подход. М.: Высшая школа, 2006. 456 с.

**Алиев Рауф Рагим оглы**
доктор философии по экономике
Министерство Экономического Развития Азербайджанской Республики

## Региональные аспекты производственной инфраструктуры

**Аннотация**

В статье исследованы теоретические и эмпирические аспекты региональной производственной инфраструктуры в условиях рыночных отношений, а также её роль и значимость в развитии страны. Проанализирована сущность и организационные-правовые формы, системы показателей и методологические обозначения производственной инфраструктуры, стратегия экономической районизации и тенденции специализации, определены факторы усиливающие её конкурентоспособности, указаны приоритетные направления эффективного государственного регулирования. Обосновано что, для обеспечения устойчивого развития региона, необходимо создать более модернизированную производственную инфраструктуры, опираясь на рациональное использование местных материальных, финансовых, трудовых ресурсов и природных богатств.

**Ключевые слова:** *региональная экономика, производственная инфраструктура, социальная инфраструктура, специализация районов*

**Aliyev Rauf Raqim oglu**
Ph.D. in Economics
Ministry of Economic Development of the Republic of Azerbaijan

## Regional aspects of an industrial infrastructure

**Abstract**

In article are investigated theoretical and empirical aspects of a regional industrial infrastructure in conditions of market relations, and also her role and the importance in development of the country. Is analysed the essence and organizational-legal forms, systems of parameters and methodological designations of an industrial infrastructure, strategy economic region and the tendency of specialization, are determined factors strengthening her of competitiveness, are specified, directions prioritys of effective state regulation. It is proved that, for maintenance of steady development of region, it is necessary to create more modernized industrial infrastructures, basing on rational use local material, financial, a manpower and natural riches.

**Key words:** *regional economy, industrial infrastructure, social infrastructure, areas of specialization*

**JEL Classification Codes:** D04, D24, E47, H54, L23, O38, R11

Məqalə redaksiyaya daxil olmuşdur: 14.01.11.
Təkrar işləməyə göndərilmişdir: 26.01.11.
Çapa qəbul olunmuşdur: 21.02.11.